**UOT 327**

# İRAN İSLAM RESPUBLİKASININ ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ VASİTƏÇİLİK MİSSİYASI (1991-1994-CÜ İLLƏR)

**Aynur QASIMOVA***

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, İİR, vasitəçilik, milli maraqlar*

**Giriş**

SSRİ-yə münasibətində həmişə ehtiyatlı siyasət yürüdən, onun dağılmasına da olduqca həssaslıqla və ehtiyatla yanaşan İran İslam Respublikası öz müstəqilliyini elan etmiş respublikaları tədricən tanımağa başladı. Moskvaya səfər etmiş İran rəsmiləri, xüsusilə sabiq xarici işlər naziri Ə.Ə.Vilayəti özünün sovet həmkarına SSRİ sərhədlərinə və ərazi bütövlüyünə hörmətlə yanaşdıqlarını bildirmişdi.

**I.** Cənubi Qafqazda gedən hərbi-siyasi prosesləri diqqətlə izləyən İran öz mənafeyinə uyğun addımlar atmağa başlayırdı. 7 may 1992-ci ildə İİR-in sabiq prezidenti Haşimi Rəfsancaninin vasitəçiliyi ilə Yaqub Məmmədov və L.Ter-Petrosyan arasında sülh sazişi haqqında danışıqlar aparıldı. Lakin İranın bu vasitəçiliyi uğursuzluqla nəticələndi. Bu danışıqların gedişi zamanı Ermənistan silahlı qüvvələri və onları hərtərəfli şəkildə dəstəkləyən qüvvələr tərəfindən 1992-ci il may ayının 8-də Şuşa, 19-da isə Laçın işğal edildi.

Rəsmi Tehranın bu həssas məsələyə münasibəti və yanaşması Azərbaycanı heç zaman qane etməmiş və edə də bilməzdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllində İran sözdə özünü "sülh və ədalət" tərəfdarı kimi göstərərək hər iki tərəfə vasitəçilik təklif etsə də, münaqişənin qarşısının alınması və işğalçı Ermənistana qarşı təsirli regional təzyiqlərin göstərilməsi istiqamətində indiyə kimi heç bir əməli tədbir görməmişdir. Bəzi beynəlxalq geostrateqlərin fikrinə görə, SSRİ dağılandan sonra İran 1990-cı illərdən başlayaraq Cənubi Qafqazda Ermənistan-Azərbaycan münaqişəsi fonunda Ermənistanla öz münasibətlərini, xüsusən də hərbi-strateji əlaqələrini möhkəmləndirərək, bu ölkəni yeri gələndə həm Azərbaycana qarşı istifadə edir, həm də Türkiyə-Azərbaycan Mərkəzi Asiyanın türk dövlətləri arasında regional bufer kimi saxlayır, onların birliyinə və əlaqələrinə mane olmağa çalışır (4, s.374).

1992-ci ilin mart ayının əvvəllərində İranın Bakıdakı səfiri Dəməşqi Azərbaycan Respublikası Ali Sovetinin sədri Y.Məmmədovla görüşündə ona bildirmişdir ki, İran dövləti Dağlıq Qarabağ münaqişəsinin siyasi vasitələrlə həllini istəyir və bu istiqamətdə də vasitəçilik fəaliyyətini davam etdirəcəkdir (11). Söhbət zamanı İran səfiri qeyd etmişdir ki, Tehran Azərbaycanda gedən bütün prosesləri diqqətlə izləyir və iki ölkə arasındakı münasibətlərin inkişaf etdirilməsində maraqlıdır.

Regionda əmələ gələn yeni beynəlxalq şəraitdən öz nüfuzunun qalxması üçün istifadə etməyə çalışan İran İslam Respublikası bu münaqişəni tezliklə aradan qaldırmaq istəyirdi. Həmin vaxtlar İran prezidenti Haşimi Rəfsəncani dəfələrlə həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi ilə telefon əlaqəsi yaratmış və atəşin dayandırılması haqqında söhbətlər aparmışdır. Hətta İranın xarici işlər naziri Ə.Ə.Vilayətinin təşəbbüsü ilə Rusiyanın İrandakı səfiri İranın Xarici İşlər Nazirliyinə dəvət edilmiş və ona təklif olunmuşdur ki, atəşin dayandırılması və münaqişənin dinc yolla aradan qaldırılması üçün İranın mövqeyini Rusiya rəhbərliyinə çatdırsın (12).

*****AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, BAAU-nun magistrantı*
*E-mail: aynur86_edu@yahoo.com*

Hələ Qırğızıstan Respublikasının Bişkek şəhərində atəşkəs haqqında müqavilə imzalanmamışdan öncə (may 1994) İran diplomatları Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyasını həyata keçirərək, müəyyən bir müddətə hərbi əməliyyatların gedişini dayandırmağa çalışırdılar. Bununla bağlı Tehran, hətta öz hərbi hissələrini Azərbaycan sərhədlərinə yaxınlaşdırmışdı. Faktlar göstərir ki, İranın həm Ermənistana, həm də Azərbaycana hərbi əməliyyatları dayandırmaq barədə xəbərdarlığı olmuşdur. Amma bu xəbərdarlıqlar artıq Dağlıq Qarabağ, Zəngilan, Füzuli, Cəbrayıl kimi Azərbaycan Respublikası ərazilərinin Ermənistan tərəfindən işğalından sonra olmuşdur (2, s.113).

Beynəlxalq münasibətlərdə İran Azərbaycana qarşı təcavüz etmiş Ermənistanı təcrid etməyə nəinki təşəbbüs göstərmiş, əksinə İran-Ermənistan münasibətlərindəki canlanma və inkişaf Azərbaycan ictimaiyyəti tərəfindən haqlı narazılıqla qarşılanmışdır. Ermənistanın İranla yaxın dostluq və qonşuluq əlaqələrinin qurulması və inkişafı, qarşılıqlı olaraq həyata keçirilən birgə layihələr də Dağlıq Qarabağ probleminin həllini çətinləşdirir. 1995-ci ilin dekabrında İranla Ermənistan arasında Araz çayı üzərində iki ölkənin birgə maliyyəsi əsasında 2,6 milyon dollara başa gələn 192 metr uzunluğunda körpünün tikintisinin başa çatması bunu bir daha təsdiq edir (1, s.140-141).

İran İslam Respublikası Dağlıq Qarabağ ətrafında münaqişəni aradan qaldırmaq üçün vasitəçilik səylərini getdikcə artırırdı. Bu məqsədlə də İran xarici işlər nazirinin müavini Mahmud Vaezi 1992-ci il mart ayının 17-də Bakıya gəldi (11). Bakıdan sonra o, İrəvan və Dağlıq Qarabağa da səfər etdi. Bu səfərdən sonra mart ayının 21-də Bakıya qayıdan M.Vaezini Ali Sovetin sədri Y.Məmmədov qəbul etdi. M.Vaezi Ermənistan rəhbərləri və Dağlıq Qarabağ erməni icmasının nümayəndələri ilə apardığı söhbətlər barədə məlumat verdi. Bu məlumatdan məlum oldu ki, Vaezi ilə aparılan danışıqlar nəticəsində Dağlıq Qarabağın erməni icması Ermənistan və Azərbaycan arasında dialoqun başlanması üçün ilkin şərt kimi atəşi dayandırmağa razılıq vermişdir. Lakin Ali Sovetin sədri Y.Məmmədov və İran xarici işlər nazirinin müavini Mahmud Vaezi arasında münaqişə zonasında atəşkəsin əldə edilməsi barədə söhbətin aparıldığı bir vaxtda Ermənistan tərəfi Qazax və Tovuz rayonlarını atəşə tutdu və nəticədə dinc əhali arasında tələfat oldu. Bu hadisə onu göstərdi ki, Ermənistan tərəfi İranın vasitəçilik səylərinə əhəmiyyət vermir (11).

Vasitəçilik məramını davam etdirən İranın xarici işlər nazirinin mavini M.Vaezi 1992-ci ilin aprelində yenidən Bakıya gəldi. Aprel ayının 8-də "Gülüstan" sarayında kütləvi informasiya vasitələri üçün mətbuat konfransında verilən suallara cavabında M.Vaezi bildirdi ki, bu vasitəçilik missiyasında İran dövlətinin məqsədi ondan ibarətdir ki, İrana qonşu olan bir dövlətin ərazisində silahlı münaqişənin genişlənməsinə yol verməsin və siyasi dialoq vasitəsi ilə problemin həllinə kömək etsin. O eyni zamanda bildirdi ki, İran həm də bu münaqişənin həlli üçün başqa bir ölkənin vasitəçiliyinə də pis baxmır (12).

Həmin fəaliyyətlərin nəticəsində də 1992-ci ilin may ayının 5-dən 8-nə qədər Tehranda İran, Azərbaycan və Ermənistan rəhbərlərinin iştirakı ilə danışıqlar keçirildi. Bu üçtərəfli danışıqlarda ölkə başçıları atəşin dayandırılması, kommunikasiya xətlərinin açılması haqqında məsələləri müzakirə edib "Tehran bəyannaməsi"ni imzaladılar (11).

İran İslam Respublikası və Azərbaycan Respublikası arasındakı siyasi, iqtisadi, ticarət, mədəni-ədəbi və turizm sahələri üzrə formalaşmış və mövcud olan bütün bu münasibətlərə baxmayaraq, İranın ictimai, o cümlədən elmi fikrində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə fərqli mövqelər formalaşmışdır. Şovinist mövqedə duran fars millətçiləri bu problemdə erməni təcavüzünə bəraət qazandırmağa çalışırlar. Bununla onlar İran azərbaycanlılarının sözügedən münaqişəyə münasibətini dəyişdirməyə cəhd göstərirlər. Nisbətən obyektiv mövqedə dayanan İran müəllifləri isə problemin mahiyyətini, münaqişənin gedişini obyektiv şəkildə işıqlandırmağa çalışmaqla İran ictimaiyyətinə münaqişəyə doğru-düzgün münasibət formalaşmasına təsir edirlər. İctimai fikrin qeyd olunan bu ziddiyyətli cəhətləri İİR hakimiyyətinin və eləcə də ayrı-ayrı vəzifə sahiblərinin münaqişəyə münasibətində öz əksini tapmışdır (7, s.193).

Qeyd edək ki, İran mətbuatı və kütləvi informasiya vasitələri Dağlıq Qarabağda cərəyan edən hadisələr barəsində müxtəlif məzmunda yazılar dərc edirdi. Bu yazılarda faktiki materiallarla yanaşı, subyektiv fikirlər də özünə yer almışdır. Belə ki, Tehranda, Təbrizdə, Urmiyada, Ərdəbildə, Zən-

canda, Miyanada və digər şəhərlərdə çap olunan qəzet və dərgilərdə, internet səhifələrində, eləcə də ayrı-ayrı müəlliflərin kitab və tədqiqat əsərlərində Dağlıq Qarabağda baş vermiş hadisələr milli və etnik kimlik baxımından qabardılır, oxucu kütləsinə təqdim edilir. "Varlıq", "Dilmac", "Haray", "Yol", "Öyrənci", "Körpü", "Azərbaycanın səsi", "Tribun", "Azər-Türk İnternational", "Azərbaycan", "Aftab-e Azərbaycan", "Xodafərin" kimi dərgilərin, "Comhuri-ye Eslami", "Fəcr-e Azərbaycan", "Salam", "Nəvid-e Azərbaycan", "Ağrı", "Şəms-e Təbriz", "Əhrar", "Avay-e Ərdəbil", "Omid-e Zəncan" və s. kimi qəzetlərin səhifələrində çap olunmuş məqalələrdə Dağlıq Qarabağda baş vermiş və günümüzə qədər davam edən hadisələrə obyektiv münasibətlərin bildirilməsi, eləcə də Qarabağ tarixi ilə bağlı həqiqətlərin söylənilməsi elmi və siyasi baxımdan çox önəmlidir. Dağlıq Qarabağ probleminin tarixi kökləri və yaranma səbəbləri barədə İranda ictimai rəyin formalaşmasında mənfi rol oynayan fars və erməni tarixçilərinin əksinə olaraq, bir sıra müəlliflər hadisələrə obyektiv, ədalətli yanaşma metodunu seçmişlər. Dövri mətbuat səhifələrində, ayrı-ayrı kitablarda Dr. Cavad Heyət, Səməd Sərdariniya, İsmayıl Hadi, Əlirza Ərdəbili, Həsən Raşedi, Böyük Rəsuloğlu, Mənuçöhr Əzizi, Tohid Məlikzadə, Camal Ayrumlu, Maşallah Rəzmi, Səməd Niknam, Səlcuq Kamal və Həsən Azərbaycanlı kimi cənubi azərbaycanlı müəlliflərin kəsərli məqalələri onların haqlı mövqelərini əks etdirməklə yanaşı, baş vermiş hadisələrə düzgün və ədalətli yanaşmağa imkan verir (9).

İranın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bütün səylərə baxmayaraq, İranın vasitəçilik missiyası Dağlıq Qarabağ probleminin həlli yolunda uğurla nəticələnmədi. Çünki birincisi, Ermənistan tərəfi heç vaxt İranın vasitəçiliyini ciddi qəbul etmədi (5, s.78). İkincisi, İranın Qafqaz regionunda nüfuzunun artması ABŞ və Rusiyanın bu məntəqədə mövqelərinin itirilməsi ilə nəticələnə bilərdi. Məhz, elə bu səbəbdən də Ermənistan-Azərbaycan münaqişəsinin sülh danışıqları yolu ilə nizamlanmasında İranın göstərdiyi vasitəçilik səyləri və bu sahədə fəaliyyəti uğur qazana bilmirdi. Belə ki, İranın regionda nüfuzunun artmasında nə Qərb ölkələri, nə də Rusiya maraqlı deyildilər (10, s.43). Faktiki olaraq Qərb dövlətləri və Rusiya Ermənistanı dəstəkləyirdilər.

**II.** 10 yanvar 1994-cü il tarixində Azərbaycan Respublikasının İrandakı səfirliyinin müvəqqəti işlər vəkili H.Əlibəyli ilə Rusiya Federasiyası prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri üzrə xüsusi nümayəndəsi V.N.Kazimirovun Tehrandakı görüşü zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında fikir mübadiləsi aparılmış və bu zaman V.N.Kazimirov bildirmişdir ki, ilk mərhələdə atəşin dayandırılması ilə eyni vaxtda Dağlıq Qarabağdan kənarda işğal edilmiş torpaqlardan erməni qoşunları çıxarılır və sonrakı mərhələdə Dağlıq Qarabağın statusu məsələsi müzakirə edilir, əks halda, onun dediyinə görə, ermənilər Şaumyan (Gülüstan) və Mardakert (Ağdərə) rayonları məsələsini qaldıracaqdılar (7, s.188).

V.N.Kazimirovun bu görüşdən əsl məqsədi isə Azərbaycan Respublikasının İrandakı səfirliyinin hazırladığı gündəlikdə (Bülletendə) belə şərh edilir: səfirlik vasitəsilə Azərbaycan hökumətinə göndərmək istədiyi bu mesajlar, İranda, xüsusilə də etnik cəhətdən bu ölkənin şimal-qərbində böyük çoxluqda yaşayan və ən böyük inzibati-ərazi vahidlərinə malik olan azərbaycanlı əhali arasında apardıqları təbliğatların bütün tərəflərinin Rusiya və İran hökumətləri ilə uzlaşdırılmasına şübhə yoxdur. Belə ki, 1994-cü il ərzində dəfələrlə Tehrana gəlmiş, İran hakim dairələrində görüşlər keçirmiş Rusiya Federasiyası prezidentinin Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri üzrə xüsusi nümayəndəsi V.Kazimirov İran Azərbaycanındakı vəziyyətlə, eyni zamanda da yerli azərbaycanlıların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə münasibətdə formalaşan əhval-ruhiyyələri ilə xüsusilə maraqlanmışdır (7, s.189). Sözsüz ki, İran hakim dairələri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda yerli azərbaycanlıların təşkilatlanmasından, çıxış etmələrindən və dövlət qarşısında müvafiq tələblər qoymalarından narahat idilər. Buna görə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında, regionda iqtisadi-ticarət təhlükəsizliyinin təmin olunması işində Rusiya hökuməti ilə müştərək fəaliyyət planlarının işlənməsində maraqlı idilər. Elə bu zamanlarda da yerli İran mətbuatı səhifələrində V.Kazimirovun dilindən yazırdılar ki, əgər Azərbaycan tərəfi Bişkek sülh proqramının şərtlərini (əslində bu sülh proqramı Ru-

siya tərəfindən hazırlanmış və təqdim edilmişdi) qəbul etməzsə, yaxın zamanlarda daha iki-üç rayonu itirəcəkdir (7, s. 190).

Bütün uğursuzluqlara baxmayaraq, Azərbaycanın yüksək səviyyəli nümayəndələri ilə keçirilən görüşlərdə digər müzakirə edilən məsələlər sırasında İran tərəfinin Dağlıq Qarabağ münaqişəsinə münasibətdə mövqeyi də ortaya qoyulurdu. 1994-cü ilin fevral ayında Azərbaycan parlamentinin nümayəndə heyəti İran İslam İnqilabının 15-ci ildönümündə iştirak etmək üçün bu ölkənin dəvəti ilə Tehrana səfər etdi. Həmin səfər zamanı Azərbaycan parlamentinin nümayəndə heyətinin başçısı Sultan Məmmədov İran parlamentində olmuş, İran parlamentinin sədr müavini və eyni zamanda İran Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhani ilə görüşmüşdü. Görüş zamanı H.Ruhani bildirmişdi ki, İİR Ermənistanla normal diplomatik münasibətlər yaratsa da, bölgədə sərhədlərin dəyişdirilməsinin əleyhinədir və onların təcavüzünü pisləyir və Tehran Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla tənzimlənməsinə tərəfdardır.

Ümummilli lider Heydər Əliyevin 29 iyun - 2 iyul 1994-cü il tarixində İrana rəsmi səfəri zamanı İİR-in ali dini rəhbəri Ayətullah Xamenei demişdir: “Azərbaycan xalqı ermənilərin hərbi təcavüzünə məruz qalmışdır və bu avantürada Ermənistan dövlətinin müdaxiləsi var və buna görə də Ermənistan dövləti təcavüzkar bir dövlətdir” (6, s.34).

Qeyd edək ki, V.Kazimirovun 2009-cu ildə “Qarabağa sülh: Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın vasitəçiliyi” (8) adlı nəşr edilmiş kitabında da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı saxta, qərəzli, qeyri-obyektiv mövqeyi və yanlış fikirləri yer almışdır. V.N.Kazimirovun bu mövqeyinə cavab olaraq Qasım Hacıyev və Sədi Nuriyev tərəfindən hazırlanmış “Vladimir Kazimirovun “Qarabağa sülh” arzusu və əsl niyyəti” adlı kitabda elmi, tarixi və obyektiv mənbələrə söykənən faktlarla cavab verilmişdir (3, s.23).

Ulu öndər Heydər Əliyev İranın Ermənistanla olan münasibətlərindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün istifadə etməyin vacibliyi haqda İran İslam inqilabının qələbəsinin ildönümü münasibətilə 11 fevral 2000-ci il tarixində Bakıda keçirilən mərasimdəki çıxışında demişdir ki, “Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində ümidvaram ki, İran dövləti sülhə nail olmaq üçün daha təsirli fəaliyyətlər göstərəcəkdir. Bu sahədə İran dövləti böyük imkanlara malikdir. Bildiyiniz kimi, İranın Ermənistanla sıx ticarət, iqtisadi və digər əlaqələri var və onlar üzərində təsir imkanına sahibdir” (7, s.187).

**Nəticə**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolu ilə bağlı bir cəhət də qeyd edilməlidir ki, İran dövləti bu sahədəki vasitəçilik niyyətində o qədər də ardıcıl, prinsipial və inadkar mövqe nümayiş etdirməmişdir. Belə ki, müasir beynəlxalq hüquq normalarına uyğun olaraq regionda sülhün və sabitliyin qorunmasını, eyni zamanda özünün dövlətçilik maraqlarını üstün tutan İran İslam Respublikası hələ o vaxt Ermənistan Respublikasının işğalçılıq siyasətinə qarşı mövqeyini bildirməli idi.

Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, İran İslam Respublikası özünün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini formalaşdırarkən həm siyasi, iqtisadi, geostrateji maraqlarını, həm də region ölkələrinin maraqlarını nəzərə almağa çalışmışdır. Rəsmi mövqeyində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına baxmayaraq, İran dövləti Dağlıq Qarabağ problemindən öz milli mənafeyi və maraqlarına uyğun siyasət həyata keçirmişdir.

## ƏDƏBİYYAT

1. Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası. Bakı, “Elm” nəşriyyatı, 1999.

2. Hacıyev Q. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı, “Təknur”, 2014.

3. Hacıyev Qasım, Nuriyev Sədi. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti. Bakı, 2011.
4. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik. - Bakı, "Zərdabi LTD" MMC, 2015.
5. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991- 1995-ci illər). Bakı, "Gənclik", 1996.
6. Səfərli Ə., Əlibəyli H. Tarixin dörd günü (Azərbaycan və fars dillərində). Tehran, "Əlhuda" nəşriyyatı, 1994.
7. Talıblı S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Bakı, "Elm və təhsil", 2016.
8. Казимиров В.Н. Мир Карабаху: Посредничество России в урегулировании нагорно-карабахского конфликта. – Москва: Международные отношения, 2009.
9. Talıblı S.Ə. İran Basını ve Bilimsel Literatüründe Dağlık Karabağ Sorunu // Yeni Türkiye. Ermeni meselesi özül sayısı IV, Ankara, Eylül-Aralık 2014, Yıl 20, Sayı 63, s.2762-2770
10. Zachary. "Fundamental Misconceptions: Islamic Foreign Policy"//Foreign Policy, Winter 1996-1997, №105, p.43
11. "Xalq qəzeti", 10 mart 1992
12. "Xalq qəzeti", 14 mart 1992

**_XÜLASƏ_**

**_Aynur QASIMOVA_**

**_İran İslam Respublikasının Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində vasitəçilik missiyasi (1991-1994-cü illər)_**

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, İİR, vasitəçilik, milli maraqlar*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolu ilə bağlı məsələdə qeyd edilməlidir ki, İran dövləti bu sahədə vasitəçilik niyyətində bir o qədər də ardıcıl, prinsipial və inadkar mövqe nümayiş etdirməmişdir. Belə ki, İran İslam Respublikası müasir beynəlxalq hüquq normalarına uyğun olaraq regionda sülhün və sabitliyin qorunmasını təmin etməli və eyni zamanda özünün Ermənistan Respublikasının işğalçılıq siyasətinə qarşı mövqeyini bildirməli idi.

İran İslam Respublikası özünün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini formalaşdırarkən həm siyasi, iqtisadi, geostrateji maraqlarını, həm də region ölkələrinin maraqlarını nəzərə almağa çalışmışdır. Bununla yanaşı İran dövləti rəsmi mövqeyində Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanısa da, lakin Dağlıq Qarabağ problemindən istifadə edərək öz milli mənafeyinə və maraqlarına uyğun siyasət həyata keçirmişdir.

**_РЕЗЮМЕ_**

**_Айнур КАСУМОВА_**

**_Посредническая Миссия Исламской Республики Иран в Армяно-Азербайджанском, Нагорно-Карабахском конфликте (1991-1994 годы)_**

***Ключевые слова:*** *Азербайджанская Республика, Армения-Азербайджан, Нагорно-Карабахский конфликт, ИИР, посредничество, национальные интересы*

Что касается урегулирования армяно-азербайджанского, нагорно-карабахского конфликта, то следует отметить, что иранское государство не проявляло столь последовательной, принципиальной и упорной позиции в посредничестве в этой сфере. Таким образом, Ислам-

ская Республика Иран должна была обеспечить мир и стабильность в регионе в соответствии с современным международным правом и в то же время выразить свою позицию против оккупационной политики Республики Армении.

Исламская Республика Иран постаралась учесть как политические, экономические, геостратегические интересы, так и интересы стран региона при формулировании своей позиции по армяно-азербайджанскому, нагорно-карабахскому конфликту. В то же время, хотя иранское государство официально признает территориальную целостность Азербайджанской Республики, но оно проводит политику в соответствии со своими национальными интересами, используя нагорно-карабахский конфликт.


## *SUMMARY*

***Aynur GASIMOVA***

***Mediation Mission of the Islamic Republic of Iran in the Armenian-Azerbaijani, Nagorno-Karabakh Conflict (1991-1994 years)***

***Keywords:*** *Republic of Azerbaijan, Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict, IRI, mediation, national interests*

Regarding the settlement of the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, it should be noted that the Iranian state did not show such a consistent, principled and insistent position in mediating in this area. Thus, in accordance with modern international law, the Islamic Republic of Iran, had to ensure the maintenance of peace and stability in the region, and at the same time express its position against the occupation policy of the Republic of Armenia.

The Islamic Republic of Iran tried to take into account both its political, economic, geostrategic interests and the interests of the countries of the region in formulating its position on the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh. At the same time, although the Iranian state officially recognizes the territorial integrity of the Republic of Azerbaijan, it pursued a policy in accordance with its national interests, manipulating the Nagorno-Karabakh conflict.